# Məsuliyyətli oyun

Azərbaycanın şans oyunlarının rəsmi təşkilatçısı olaraq xoş və əyləncəli xidmətlər təqdim edərkən sosial məsuliyyətlərimizin fərqindəyik. “Azərlotereya” ASC-nin məsuliyyətli oyun prinsiplərinə uyğunluğunu təmin etmək məqsədilə aşağıdakı “Məsuliyyətli oyun!” çağırışını tərtib etdik. Məsuliyyətli oyundan zövq almaq üçün aşağıdakı davranış qaydalarına əməl etməyi tövsiyə edirik.




- **Əyləncəni yaşa!**

Şans oyunlarında əsas məqsəd pul qazanmaq deyil, əylənmək olmalıdır. Buna gəlir mənbəyi və məşğulluq növü kimi baxma.

Oyunlarda istədiyin uduşu qazanmamaq normaldır. Bəxtinə küsmə, şansını bir daha sına.

- **Məlumatlı ol!**

Şans oyunlarına başlamadan öncə oyun şərtləri və əmsallarla tanış ol.

Məlumatlı olmaq intizam göstəricisidir.

- **Ölçülü ol!**

Daha çox qazanmaq üçün daha çox oynama. Özünə bir oyun limiti təyin et və ona sadiq qal.

Büdcəni aşma! Vaxta nəzarət et, fasilə ver.

- **18+ yaş məhdudiyyətini xatırla!**

Yalnız 18 yaşı tamam olmuş şəxslər şans oyunlarında iştirak edə bilərlər.

**Məsləhətlər**

- Şans oyunları həm əyləncəli, həm də qazanclı ola bilər, ancaq hər dəfə qalib olmaya bilərsən.
- Oyunda əsas məqsəd varlanmaq deyil, əylənmək olmalıdır.
- Oyun anında diqqətli və təmkinli ol, depressiyaya düşdüyün zaman oynama.
- Alkoqol istifadə etmisənsə, oynama.
- Uduzanda üzülməyəsən deyə büdcəni aşmayacaq və borc almağa səbəb olmayacaq məbləğlərdə oyna.
- Oyuna xərclədiyin məbləği qaytarmaq üçün daha çox oynamağa çalışma.
- Ehtiyacların üçün ayırdığın məbləğləri oyunlara xərcləmə.
- Şans oyunlarını mənəvi və ya fiziki ağrılarla mübarizə yolu kimi qəbul etmə.

"Azərlotereya" ASC lotereya və idman mərc oyunlarına aludəçiliyi olan oyunçularına dəstək məqsədilə ***2070 "Məsuliyyətli oyun!"** dəstək xəttini istifadəyə verib.

"Məsuliyyətli Oyun" standartı ilə bağlı "Azərlotereya" ASC-nin Müşahidə Şurasının qərarına əsasən, "Azərlotereya" ASC-nin İdarə Heyəti Avropa Lotereyaları və Toto Assosasiyasının "Məsuliyyətli Oyun" standartlarının "Azərlotereya" ASC-nin bütün fəaliyyət istiqamətləri üzrə tətbiq edilməsinə və lazımi adaptasiyaların icra edilməsinə dair strateji hədəflərin icra edilməsinə görə məsuliyyət daşıyır.

“Azərlotereya” ASC 2022-ci ildə Dünya Lotereya Assosiasiyasına (WLA) üzv olduğu üçün WLA:SCS-2020 və ISO 27001-2013 informasiya təhlükəsizliyi standartları əsasında təhlükəsizlik nəzarət sistemləri və informasiya təhlükəsizliyi istiqamətində yazılı və elektron məlumatların və eləcə də mərkəzi oyun sistemlərində yerləşən informasiyanın bütünlüyünün, tamlığının və gizliliyinin qorunması istiqamətində məsuliyyət daşıyır. İnformasiya təhlükəsizliyinin tam təmin edilməsi “Azərlotereya” ASC-nin icrası yüksək prioritet olaraq qiymətləndirilən strateji hədəfləri siyahısındadır və effektiv şəkildə icrasının təmin edilməsi mütləq xarakter daşıyır.